**Azərbaycan (Respublikası tərəfindən 1994-cü il 15 aprel tarixində Moskva şəhərində imzalanmış Müstəqil Dövlətlər Birliyi iştirakçıları olan dövlətlər arasında «Gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Saziş və «Gömrük xidmətlərinin qanunsuz aparılan və gətirilən mədəni sərvətlərin tutulub saxlanılması və geri qaytarılması məsələləri üzrə əməkdaşlığı haqqında» Saziş barəsində**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidenti **qərara alır:**

1. Azərbaycan Respublikası tərəfindən 1994-cü il 15 aprel tarixində Moskva şəhərində imzalanmış Müstəqil Dövlətlər Birliyi iştirakçıları olan dövlətlər arasında «Gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında» Saziş və «Gömrük xidmətlərinin qanunsuz aparılan və gətirilən mədəni sərvətlərin tutulub saxlanılması və geri qaytarılması məsələləri üzrə əməkdaşlığı haqqında» Saziş təsdiq edilsin.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirləri görsün.
3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsini bu sərəncamın 1-ci bəndində göstərilən Sazişlərin qüvvəyə minməsi ilə əlaqədar dövlət daxili prosedurların görülməsi haqqında xəbərdar etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

**Bakı şəhəri, 16 sentyabr 1995-ci il**
**№ 215**